AZƏRBAYCAN

2 fevral 2024-cü il

# Vətəndaşların seçki hüquqlarının təmin edilməsində prokurorluq orqanlarının rolu müzakirə olunub

**Yanvarın 31-də Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi tərəfindən tabe rayon (şəhər) prokurorluqlarının işçiləri üçün "Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının təmin edilməsində prokurorluq orqanlarının rolu" mövzusunda distant formada seminar keçirilib.**



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, seminarda mühazirəçi kimi iştirak edən Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin prokuroru Pərvanə Bayramova tərəfindən dinləyicilərə seçki hüququnun konstitusion əsasları, seçki sisteminin sosial-siyasi mahiyyəti, seçki mübahisələrinin həll olunması üsulları, vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) şikayətlər üzrə müvafiq prokurorluq orqanlarına müraciət edilmə halları və qaydası, eləcə də seçki subyektlərinin toxunulmazlıq və təhlükəsizlik məsələləri barədə ətraflı məlumat verilib.